**Günay Eldar qızı Məmmədova (Nəciyeva)**

**Həyatı**

Günay Eldar qızı Məmmədova (Nəciyeva) 1989-cu il, noyabr ayının 3-də Bakı şəhərində anadan olub.

2007-ci ildə Xətai rayonunun 249 saylı orta məktəbini bitirdikdən sonra ali məktəbə qəbul olmuşdur. 2007-2012-ci illərdə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində ali təhsil almış, ərəb dili müəllimliyi və dinşünaslıq ixtisasına yiyələnmişdir.

2013-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix institutunun "Vətən tarixi" ixtisası üzrə əyani doktoranturasına qəbul olmuşdur.

2019-cu ildə "Azərbaycan Səfəvi dövləti (XVII əsrin II yarısı, XVIII əsrin əvvəllərində) mövzusunda doktorluq dissertasiyasını baş vurub. Elmi işinin müdafiəsinə hazırlaşır.

Ailəlidir.

**Əmək fəaliyyəti**

İlk əmək fəaliyyətinə Mərkəzi Elmi Kitabxanada 2014-cü ildən başlayıb. Əvvəlcə AMEA Mərkəzi Elmi Kitabxanasında 2014-cü il 9 dekabr tarixində kitabxanaçı vəzifəsinə işə qəbul edilib. 2015-ci il 1 sentyabr tarixində Milli Rəqəmsal Yaddaş şöbəsinə mütəxxəsis vəzifəsinə işə qəbul edilib. 2017-ci il 1 fevral tarixində Sərbəst Elektron Resurslar şöbəsinin Viki Təlimlər bölməsinin rəhbəri təyin olunub. Hal-hazırda həmin vəzifədə çalışır.

**Əsərləri**

1. Məmmədova G.E. XVII əsrin II yarısında Səfəvilər dövlətinin xarici siyasəti//"Kitabi-Dədə Qorqud" və türk dünyası. "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. 29 dekabr, 2015-ci il. Bakı, 2015, s. 745-751

2. Məmmədova G.E. Azərbaycan Səfəvi dövlətinin beynəlxalq ticarət əlaqələri (Şah II Abbas dövrü)//Strategiya, 2016, №03 (33), may-iyun, s. 29-33
3. Məmmədova G.E. Şah Sultan Hüseyn dövründə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinə dair//Strategiya, 2015, №06 (30), noyabr-dekabr, s. 36-39
4. Məmmədova G.E. XVII əsrin II yarısında Azərbaycan Səfəvi dövlətində kəndlilərin vəziyyəti//Материалы V Международной научно-практической интернет – конференции «Евразийское пространство в мировой цивилизации» посвященная 25-летию Независимости Казахстана. Астана, 2016, с. 8-13
5. Məmmədova G.E. Azərbaycan Səfəvi dövlətinin beynəlxalq ticarət əlaqələri (Şah Süleyman və Şah Sultan Hüseyn dövrü)//Pedaqoji Universitetin xəbərləri, 2018, c.66, №1, s. 176-191
6. ***Məmmədova G.E. I Pyotrun Xəzərsahili bölgələrə yürüşü//Pedaqoji Universitetin xəbərləri, 2019, (çapa hazırlanır)***
7. ***Şeyx Cüneyd türbəsinin tarixi. Doğumunun 800-cü ilində Şeyx Zahid Gilani Beynəlxalq Simpoziumu. 12-15 dekabr, 2018, (materialları çapa hazırlanır)(Elnur Nəciyevlə həmmüəllif)***

## Əldə etdiyi nailiyyətlər

1. 2013-cü ildə "X kompüter" tədris mərkəzində **Windows XP/7, Microsoft Office Word 2007, Microsoft Office Excel 2007 proqramları üzrə kursu** uğurla bitirdiyininə görə sertifikatla təltif olunub.
2. 2018-ci ildə Lənkəranda keçirilən **"Doğumunun 800-cü ilində Şeyx Zahid Gilani Beynəlxalq Simpoziumu"nda** məruzə ilə çıxış edərək sertifikatla təltif olunub.
3. Gül Körpələr Evi-Uşaq Bağçasının 6 aprel 2019-cu il tarixində təşkil etdiyi "**0-6 yaş dövrü uşaqlarda doğru bildiyimiz yanlışlar və ümumi**

**nitq qüsurları**” adlı MasterClass-da iştirak etdiyinə görə sertifikatla təltif olunub.

4. 2016-cı ildə Qazaxıstan Respublikasının 25 illiyi ilə bağlı **“Avrasiya məkanı dünya sivilizasiyasında” V beynəlxalq elmi-praktiki internet konfransında** iştirak edib məruzə ilə çıxış etdiyinə görə sertifikatla təltif edilib.